| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 17.10.2014 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1065-IVQD |
| **ADI** | “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 09-11-2014, Nəşr nömrəsi: 245), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-2014, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 1345) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 09.11.2014 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 090.030.010 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12201410171065 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 05.11.2014 |

**“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin icrası ilə əlaqədar **qərara alır:**

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 12, maddə 740; 2002, 12, maddə 706; 2003, 1, maddə 23, 8, maddə 428, 12, I kitab, maddələr 676, 698; 2005, 1, maddə 1, 6, maddə 462, 8, maddə 684, 10, maddələr 873, 905, 12, maddə 1083; 2006, 3, maddələr 223, 225, 6, maddə 481, 12, maddələr 1015, 1029; 2007, 2, maddə 80, 12, maddə 1203; 2008, 3, maddə 158, 6, maddə 462, 7, maddə 602, 12, maddə 1047; 2009, 1, maddə 5, 2, maddə 56, 3, maddə 160, 7, maddə 519, 12, maddə 947; 2010, 4, maddə 276, 6, maddə 485, 10, maddə 840, 11, maddə 939; 2011, 1, maddə 12, 4, maddələr 245, 264, 11, maddə 985, 12, maddə 1100; 2012, 1, maddə 4, 6, maddələr 508, 518, 7, maddə 646, 10, maddə 947, 12, maddələr 1216, 1227, 1229; 2013, 3, maddə 213, 5, maddə 474, 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, 12, maddə 1485; 2014, 1, maddə 6, 5, maddə 468, 6, maddələr 603, 605, 7, maddələr 774, 780) aşağıdakı dəyişikliklər edilsin:

1. 14.7-ci maddə ləğv edilsin.

2. 16.1.6-cı və 16.1.7-ci maddələr aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 16.1.6. birdəfəlik giriş vizalarının rəsmiləşdirilməsi üçün | 50 ABŞ dolları |
| 16.1.7. çoxdəfəlik giriş vizalarının rəsmiləşdirilməsi üçün | 350 ABŞ dolları |

3. 16.1.8-ci maddədə “Turistlərin (yalnız turist vauçeri və ya turist göndərişini təqdim edənlərə şamil olunur)” sözləri “Turizm vizalarının” sözləri ilə əvəz edilsin.

4. 16.1.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 16.1.9. tranzit vizalarının rəsmiləşdirilməsi üçün: | |
| 16.1.9.1. birdəfəlik tranzit vizası | 20 ABŞ dolları |
| 16.1.9.2. ikidəfəlik tranzit vizası | 40 ABŞ dolları |

5. 17.3-cü maddədən “və ya onun etibar müddətinin artırılmasına” sözləri çıxarılsın.

6. Aşağıdakı məzmunda 19.4-cü maddə əlavə edilsin:

“19.4. Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədlərindəki məlumatlar və ya işlədiyi hüquqi şəxsin adı dəyişdikdə və ya iş icazəsi itirildikdə, belə icazənin yenidən rəsmiləşdirilməsi üçün dövlət rüsumu ödənilmir. Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin eyni işəgötürənin yanında başqa işə keçirilməsi ilə bağlı yeni iş icazəsi verildikdə, dövlət rüsumu ödənilmir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 oktyabr 2014-cü il
1065-IVQD